## Beynəlxalq reytinq güzgüsündə



# Azərbaycan dünyanın ən güclü dövlətləri arasındadır

## ABŞ-ın "U. S. News & World Report" jurnalının reytinq siyahısında ölkəmiz 45-ci yerdədir





***ABŞ-ın nüfuzlu "U. S. News & World Report" jurnalında dərc olunmuş reytinq siyahısında dünyanın ən güclü ölkələrinin adları açıqlanıb. Azərbaycan səksən ölkə arasında 45-ci yerdə qərarlaşıb. Reytinq siyahısı Pensilvaniya Universitetinin Wharton biznes məktəbinin, BAV Group və VMLY&R qlobal marketinq kommunikasiyası şirkətinin mütəxəssisləri tərəfindən keçirilmiş sorğulara əsasən tərtib edilib. İyirmi mindən çox respondent arasında keçirilmiş sorğuda dünyanın ən güclü 80 ölkəsi müəyyən edilib. İlk yerdə ABŞ, sonuncu yerdə isə Estoniyadır. İlk onluğa ABŞ, Rusiya, Çin, Almaniya, Böyük Britaniya, Fransa, Yaponiya, İsrail, Səudiyyə Ərəbistanı Krallığı, Koreya Respublikası daxildir.***

Reytinq siyahısı əsasən beş cəhət üzrə-iqtisadi vəziyyəti, siyasi təsir dairəsi, hərbi gücü, dünyada liderliyi, beynəlxalq təşkilatlarda üzvlüyü və iştirakına əsasən tərtib olunub.

Siyahıya rəhbərlik edən ABŞ dünyanın ən güclü iqtisadi və hərbi büdcəsinə malikdir. Belə ki, "U. S. News & World Report" jurnalı qeyd edir ki, ABŞ 2017-ci ildə hərbi texnika və heyətə 610 milyard dollardan çox vəsait xərcləyib. Lider ölkə 2017-ci ildə 35 milyard dollardan bir az çox iqtisadi və təxminən 15 milyard dollarlıq hərbi məsələlər üçün xərcləyib.

Qardaş Türkiyə Respublikası isə reytinq siyahısında dünyanın 16-cı ən güclü ölkəsi kimi müəyyən edilib.

Bundan əvvəl də ölkəmiz bir sıra beynəlxalq sorğu və reytinq siyahılarında qabaqcıl yerlərdə qərarlaşıb. Bu göstəricilərin davamlı xarakter alması bir daha ölkəmizin ictimai-siyasi, iqtisadi və sosial siyasətinin, uğurlu xarici və daxili siyasətinin nəticəsinin bəhrəsidir.

Reytinq siyahısında Azərbaycanın göstəriciləri arasında ümumdaxili məhsul 40,7 milyard dollar, alıcılıq qabiliyyəti pariteti ilə dəyərləndirilən ümumi daxili məhsul 17,529 dollardır.

Bu gün Azərbaycanın həyata keçirdiyi beynəlxalq və regional enerji və iqtisadi layihələr, beynəlxalq tədbirlərə evsahibliyi etməsi, bir sıra beynəlxalq təşkilatların fəal üzvlərindən olması, hətta Qoşulmama Hərəkatı kimi dünyanın BMT-dən sonra ikinci ən böyük təşkilatına sədrlik etməsi kimi çoxsaylı faktlar ölkəmizin təkcə regionda deyil, beynəlxalq arenada da yüksək nüfuzuna müsbət təsir edir.

Reytinq siyahısında nəzərə alınan liderlik məsələsi haqqında onu demək olar ki, bu gün Azərbaycan xalqının dəstəyi ilə seçilmiş Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyəti vətəndaşlar tərəfindən birmənalı şəkildə dəstəklənir. Prezident daim paytaxtda və regionlara səfərlərdə vətəndaşlarla görüşür, onların vəziyyəti və qayğıları ilə maraqlanır, zəruri qərarlar verir. Təkcə keçən il Şamaxıda baş vermiş zəlzələ nəticəsində evlərinə ziyan dəymiş vətəndaşlara Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqəti, onlarla səmimi görüşü və hərtərəfli dəstəyi bir daha ölkə başçısının lider olaraq hər an xalqın yanında olduğunu göstərir.

Vətəndaşın hər an ölkə başçısının dəstəyini hiss etməsi, ona etimadı liderə olan inamından və onun yüksək nüfuzundan xəbər verir.

İqtisadi və siyasi nüfuz məsələsinə gəlincə, bu gün Azərbaycanın hər mənada nüfuzu yüksəldikcə, onun mövqeyi də güclənir. Prezident İlham Əliyevin uzaqgörən və səmərəli fəaliyyətinin nəticəsidir ki, ölkəmiz qonşular başda olmaqla, Qərb və Şərq ölkələri ilə uğurla əməkdaşlıq edir, müxtəlif istiqamətlərdə əlaqələri genişləndirir. Bunun nəticəsidir ki, ölkəmizin istər türk dünyasında, istər İslam ölkələri arasında, eləcə də, bütövlükdə Qərbdə yüksək nüfuzu və çəkisi var. Azərbaycan dövləti Şərq və Qərb sivilizasiyasını özündə cəmləşdirdiyindən onun apardığı sülhməramlı və müsbət siyasət ölkəmizə yeni müttəfiqlər və dost ölkələr qazandırır ki, bu da Azərbaycanı dəstəkləyən ölkələrin artması deməkdir.

Respublikamız artıq siyasi güclər tərəfindən də strateji əhəmiyyətli, eləcə də etibarlı ölkələrdən sayılır. Belə olmasaydı, Rusiya və NATO-nun hərbi generallarının görüşü Bakıda keçirilməzdi. Beynəlxalq medianın da diqqətində olan bu strateji əhəmiyyətli görüşlərin keçirilməsi üçün Bakının seçilməsi ölkəmizə olan etimadın və dövlətimizin geosiyasi çəkisinin nəticəsidir. Bir sözlə, Azərbaycan təkcə etibarlı tərəfdaş deyil, həm də təhlükəsiz məkandır.

Ölkənin iqtisadi nüfuzu da son illər yüksək sürətlə artmaqda davam edir. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin açılması, Cənub Qaz Dəhlizinin əsas hissələrindən olan TANAP və TAP layihələrinin uğurlu icrası kimi layihələr Azərbaycanı həm enerji, həm də geostrateji logistika mərkəzlərindən birinə çevirib. Qeyri-neft sektoruna ayrılan diqqətin və dəstəyin nəticəsidir ki, ölkəmizdə əvvəllər populyar olan üzümçülük, şərabçılıq, pambıqçılıq, baramaçılıq kimi müxtəlif sahələr yenidən dirçəldilir, iqtisadi inkişaf nəticəsində əhalinin sosial rifahı daha da yaxşılaşır. Əhalinin sosial rifahı, eləcə də qayğıya ehtiyacı olan kəsimi--şəhid ailələri, qaçqın və məcburi köçkünlər daim dövlətin qayğısı ilə əhatə olunur.

Ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasının qarantı olan ordunun maddi-texniki bazasının daha da yaxşılaşdırılması, müasir silah və hərbi texnikanın alınması, müxtəlif ölkələrlə uğurlu hərbi əməkdaşlıq da daim diqqət mərkəzindədir. Azərbaycanın hərbi nüfuzunun nəticəsidir ki, ölkəmiz artıq həm də regional hərbi təlimlərə evsahibliyi edir. Bu il Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda qərargah təlimi, "Mustafa Kamal Atatürk–2019" Azərbaycan–Türkiyə döyüş atışlı birgə taktiki təlimləri, Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq–2019" birgə döyüş atışlı taktiki təlimlərinin uğurla keçirilməsi dövlətimizin hərbi gücünün göstəriciləridir.

ABŞ-ın nüfuzlu "U. S. News & World Report" jurnalında dərc olunmuş reytinq siyahısında dünyanın ən güclü ölkələri arasında işğalçı Ermənistanın olmaması qonşu ölkənin işğalçılıq siyasətinə görə, uçuruma yuvarlandığını, iqtidarın cəmiyyəti boş vədlərlə aldatdığını sübut edir.

***Əfsanə BAYRAMQIZI,
"Xalq qəzeti"***